AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**
**kafedrasının müdiri: i.f.d., dos. E.Q.Məmmədov**
**12 sentyabr 2025-ci il**

**"DÖVLƏT QULLUĞU" fənni üzrə**

# İŞÇİ TƏDRİS PROQRAMI

**(Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **00247** |
| **Fənnin növü:** | **əsas** |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri:** | **Payız** |
| **Fakültə:** | **İqtisadiyyat və idarəetmə** |
| **Qrup:** | **252-253** |
| **Tədris yükü:** | **60 saat (mühazirə/məşğələ -30/30)** |
| **Kredit sayı:** | **8 (səkkiz)** |
| **Kafedra:** | **İctimai idarəetmə və sosial innovasiyalar** |

## II. Müəllim haqqında məlumat


| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **Rəşad Səfərov (dosent)** |
| **E-mail ünvanı:** | **safarov_rashad@mail.ru** |
| **İş telefonu:** | **012 492 59 03** |
| **Tələbələr üçün qəbul vaxtları:** | **çərşənbə axşamı günləri, saat 14:00-16:00** |

## III. Fənnin təsviri

Bu fənn, ümumi (əsas) fənnlər siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrə dövlət qulluğunun nəzəri və praktiki biliklərinin öyrənilməsi sahəsində zəruri baza biliklərini təqdim edir, habelə onlara dövlət qulluq münasibətləri və bu sahədə çalışan dövlət qulluğçularının problemlərini anlamaq üçün lazım olan analitik bacarıq və vərdişlər aşılayır.

Fənnin tədrisi prosesində Azərbaycanda dövlət qulluğu ənənləri, məmurluq münasibətləri, dövlət idarəetmə mexanizmi, onun mahiyyəti, prinsipləri, dövlətçilik sistemi, dövlət qulluğunda kadrların idarə olunması, xarici ölkələrin dövlət qulluğu nəzəriyyələri, dövlət qulluğunun hüququi əsasları, dövlət qulluğunu növləri, dövlət qulluqçularının etik davranış qaydaları, dövlət orqanları, onların təsnifatı, regional tabeçi orqanlar, dövlət orqanlarında vəzifələrin təsnifatı, inzibati və yardımçı vəzifələrə aid ixtisas tələbləri, dövlət qulluqçusunun anlayışı, dövlət qulluqçularının ixtisas dərəcələri, dövlət qulluqçusunun əsas vəzifələri və hüquqları, dövlət qulluqçularının məhdudiyyətləri, dövlət qulluqçularının sosial vəziyyəti və peşə hazırlığı, dövlət qulluğuna daxil olma, dövlət qulluqçularının attestasiyası və irəli çəkmək hüququ, dövlət qulluğuna xitam verilməsi barəsində tələbələrə zəruri biliklər verilir və bacarıqlar aşılanır.

## IV. Fənnin məqsədi və vəzifələri

Kursun tədrisində məqsəd tələbələrə dövlət idarəetmə mexanizminin xüsusiyyətlərini dərk etməyə və anlamağa yardım etmək, nəzəri bilikləri və praktiki alətləri birləşdirməklə tələbələrdə dövlət qulluq münasibətləri sahəsində analitik təhlil bacarıqları formalaşdırmaqdır.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- Dövlət qulluğu, dövlət idarəetmə mexanizmi və onların xüsusiyyətləri barədə tələbələrdə tam təsəvvür formalaşdırmaq;
- Azərbaycanda dövlət qulluq münasibətləri, məmurluq ənənələri, saray quluğğu haqqında tələbələrdə təsəvvür yaratmaq;
- Dövlət qulluğunda kadr siyasətinin təhlili ilə bağlı əsas elmi yanaşmaları və modelləri tələbələrə təqdim etmək;
- Dövlət qulluğunun formalaşmasına təsir göstərən amilləri və belə təsirlərin qiymətləndirlməsi üsullarını başa salmaq;
- Azərbaycanda müasir dövlət qulluğunun təkilinin əsasları,dölət qulluğunun əsas vəzifələri, dövlət qulluğunda inzibati və yardımçı vəzifələrin təsnifatı və bu vəzifələri ixtisas tələblərini tələbələrə aşılamaq;
- Dövlət qulluqçularının etik davranış qaydaları, dövlət qulluqçularının ixtisas dərəcələri, ixtisas dərəcələrinin verilməsi və onlardan məhrum edilməsi, dövlət qulluğu ilə əlaqədar məhdudiyyətlər, dövlət qulluqçularının sosial müdafiəsi və təhsilinin artırılması, dövlət qulluğuna qəbul, dövlət qulluqçularının attestasiyası,, irəli çəkilməsi və dövlət qulluqçularının məsuliyyəti sahəsində tələbələrə zəruri bacarıq və qabiliyyətlərin aşılanması.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq.

Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

**VI. Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Azərbaycanda dövlət qulluğu ənənələri, onun tarixi və nəzəri əsaslarını;
- Dövlət qulluğu, dövlət idarəçilik sistemi və dövlət mexanizminin mahiyyətini;
- Azərbaycanda müasir dövlət qulluğunun yaradılmasının əsasları və prinsiplərini;
- kadrların idarə olunması modelləri və sistemlərinin əsas xüsusiyyətlərini;
- Dövlət orqanlarının təsnifatını;
- Dövlət orqanlarında vəzifələrin təsnifatını;
- Dövlət qulluqçusu anlayışı və onlara ixtisas dərəcələrinin verilməsi qaydasını;
- Dövlət qulluqçularının sosial müdafiəsinin, və təhsilinin əsas istiqamətlərini və təşkili xüsusiyyətlərini
- Dövlət qulluğuna qəbulolma qaydalarını və dövlət qulluğunun şərtlərini;
- Dövlət qulluqçularının attestasiyasının keçirilməsi və irəli çəkilməsi üsullarını;
- Dövlət qulluqçularının məsuliyyəti və dövlət qulluğuna xitam verilməsinin qanunvericilik əsaslarını.

**Bacarmalıdırlar**:

- müxtəlif ölkələrin dövlət qulluğu nəzəriyyələrini təhlil etməyi və ölkəmizin dövlət qulluğu təcrübəsində bu nəzəriyyələrə yanaşmaları qiymətləndirməyi;
- Azərbaycanın müasir dövlətçilik sistemi və dövlət idaretmə mexanizminin formalaşmasına təsir göstərmiş amilləri təhlil etməyi;
- kadrların idarəedilməsi strategiyasında dövlət qulluğunun əsas modellərinə və sistemlərinə olan yanaşmaları fərqləndirməyi;
- dövlət qulluqçularının vəzifə maaşlarına əlavələrin faizini, yerli əmsalların həcmini və stajına görə təyin olunan pensiyalarının məbləğini hesablamağı və konkret dövlət orqanlarına tətbiq etməyi;
- inzibati və yardımçı vəzifə tutan dövlət qulluqçularına xidmət illərindən asılı olaraq attestasiyadan keçmə və növbəti ixtisas dərəcəsi verilməsi illərini proqnozlaşdırmağı;
- dövlət qulluqçularının fəliyyətini və dövlət qulluğunda olmanın yaş həddini "Dövlət qulluğu haqqında" Qanunla müəyyən edilmiş meyarlar əsasında qiymətləndirməyi.

**VII. Kursun proqramı**

Proqram 15 mühazirə, 15 seminar olmaqla 60 saata əsaslanır. Proqram mühazirələr, müzakirələr, tapşırıqlar və məşqlər, qrup işi, praktik məşğələlər və iş müzakirəsini əhatə edir.

**VIII. Fənnin mühazirə mövzuları**

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

1. Dövlət qulluğu, onun məzmunu və tədqiqat obyekti
2. Azərbaycanda dövlət qulluğu ənənələri və onun inkişaf tarixi
3. Dövlət qulluğunda kadr siyasəti, kadrların idarəolunması sistemləri və modelləri
4. XXI əsrin dövlət qulluğu strategiyası

5. Qabaqcıl ölkələrdə dövlət qulluğu və onların qısa xülasəsi (ABŞ, Böyük Britaniya)
6. Qabaqcıl ölkələrdə dövlət qulluğu və onların qısa xülasəsi (Fransa, Almaniya və Rusiya)
7. Dövlət qulluğu institutu və onun tədqiqat metodları
8. Dövlət qulluğunun hüquqi əsasları, vəzifələri və prinsipləri
9. Dövlət qulluqçularının etik davranış qaydaları
10. Dövlət orqanları. Onların təsnifatı və dövlət vəzifəsi
11. Dövlət qulluqçuları və məmurları
12. Dövlət qulluqçularının sosial müdafiəsi və peşə hazırlığı
13. Dövlət qulluğuna daxil olma
14. Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi və irəli çəkmək hüququ
15. Dövlət qulluqçularının məsuliyyəti və dövlət qulluğuna xitam verilməsi

**IX. Prerekvizitlər** Yoxdur.

**X. Fənnin tədris metodologiyası**

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

**XI. Fənnin mühazirə mətnləri**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində (www.unec.edu.az ) tələbə kabinetində yerləşdirilir.

**XII. Əsas dərslik və dərs vəsaitləri**

1. *Səfərov R.A. Dövlət qulluğu. Dərs dərs vəsaiti. Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2014*
2. *Rzayev Ə.H. Dövlət qulluğunun hüquqi əsaslar. Bakı, “Elm”, 2011*
3. Hüseynova N.Ş. Dövlət qulluğu və kadr siyasəti. Monoqrafiya. Bakı, ADİLOĞLU 2013

Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

**XIII. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **Dövlət qulluğu, onun məzmunu və tədqiqat obyekti** | Dövlət qulluğu fənninin dövlət idarəetməsinin təkmilləşdirilməsində rolu. Dövlət idarəçiliyi və dövlət qulluğu məsələləri. Dövlətçilik sisteminin elementləri. Dövlətçilik dövlət təzahürlərinin qarşılıqlı asılılıqda vahid | **1 (**fəsil 1);<br>**2 (**Giriş; fəsil 1; 2.2);<br>**3** (fəsil 1.1) |

| | | | |
|---|---|---|---|
| | | sistemi kimi. Dövlət idarəetmə mexanizmi: mahiyyəti və prinsipləri. | |
| 2 | **Azərbaycanda dövlət qulluğu ənənələri və onun inkişaf tarixi** | Azərbaycanda dövlətçilik tarixi və dövlətçilik siyasəti. "Siyasətnamə", "Əxlaqi-Nasiri", "Qabusnamə" əsərlərində dövlətçilik ənənələrinin inkişafı. Azərbaycanda orta əsrlərin dövlət quruluşu və idarəetmə sistemi. Səfəvilər dövründə Dövlət Şurasının formalaşması və qulluqçular. Azərbaycanda xanlıqlar, Çar Rusiyası, Sovet Rusiyası və Xalq Cumhuriyyəti döründə mövcud olmuş idarəetmə sistemi və qulluq münasibətləri. | **1** (fəsil 2.1, 2.2, 2.3, 2.4);<br>**3** (fəsil 1.2; 1.3) |
| 3 | **Dövlət qulluğunda kadr siyasəti, kadrların idarəolunması sistemləri və modelləri** | Dövlət qulluğu məsələləri və kadrların idarəolunması. Dövlət qulluqçuları ilə vətəndaşlar arasında ədalətli rəftar, öhdəlikləri və hüquqları. Dövlət qulluğunda karyera modeli və vəzifəyə əsaslanan model. Kadrların idarəedilməsi mexanizminin mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş sistemləri. | **1 (**fəsil 3);<br>**2** (fəsil 9.1; 9.2);<br>**3** (fəsil 3.1; 3.2; 3.3; 3.4; 3.5) |
| 4 | **XXI əsrin dövlət qulluğu strategiyası** | Polşa dövlət qulluğu ofisində qəbul edilmiş prinsiplər**.** Avropa ittifaqı ölkələrinin dövlət qulluğu sistemində kadrların idrəolunması. BMT-də "Dövlət sektorunun işi üçün kadr potensialının açılması". Azərbaycanda Dövlət Qulluğunun İdarəetmə Şurası (6+6+6) | **1** (fəsil 4);<br>**2** (fəsil 9.3) |
| 5 | **Qabaqcıl ölkələrdə dövlət qulluğu və onların qısa xülasəsi (ABŞ, Böyük Britaniya)** | Amerika bürokrtiyanın spesifik xüsusiyyətləri. "Qənimət sistemi", Pensiya fondu, "Nailiyyətlər sisteminin" tətbiqi, Pendlton qanunu. Böyük Britaniya dövlət qulluğu institutunun inkişafı. 1960-cı illər islahatları, Fulton məruzəsi. | **1** (fəsil 5);<br>**2** (fəsil 10); |
| 6 | **Qabaqcıl ölkələrdə dövlət qulluğu və onların qısa xülasəsi (Fransa, Almaniya və Rusiya)** | Fransa dövlət qulluğunun yaranması və inkişafı**.** Almaniya dövlət qulluğunun yaranması və inkişafı. Rusiya dövlət qulluğunun yaranması və inkişafı. | **1** (fəsil 4.1; 4.3; 4.5; 4.7) |
| 7 | **Dövlət qulluğu institutu və onun tədqiqat metodları** | Dövlət qulluğu institutu anlayışı və mahiyyəti. Dövlət qulluğunun tədqiqat metodları. | **1** (fəsil 2.5);<br>**2** (fəsil 3); |
| 8 | **Dövlət qulluğunun hüquqi əsasları, vəzifələri və prinsipləri** | Dövlət qulluğu haqqında ümumi müddəalar və onun əsas məqsədi. Dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsində "Dövlət qulluğu haqqında" Qanunun rolu və yeri. Dövlət qulluğunun tənzimlənməsində Azərbaycan Respublikası Prezidentinin Fərmanlarının əhəmiyyəti. Dövlət qulluğunun növləri təsnifatı. Dövlət qulluğunun əsas vəzifələri. Dövlət qulluğunun təşkilinin əsasları və prinsipləri. | **1 (**fəsil 6);<br>**2** (fəsil 4.1; 4.2);<br>**3** (fəsil 1.4; 1.5) |

| | | | |
|---|---|---|---|
| 9 | **Dövlət qulluqçularının etik davranış qaydaları** | “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Qanunun ümumi müddəaları və onun əsas məqsədi. Dövlət qulluqçularının etik davranışına dair prinsiplər və qaydalar. Etik davranış qaydalarının həyata keçirilməsinin təminatları. Etik davranış qaydalarının pozulmasına görə dövlət qulluqçularının məsuliyyəti. | **1** (fəsil 8.3 və 12.1);<br>**2** (fəsil 6.2 və 8.2 ) |
| 10 | **Dövlət orqanları. Onların təsnifatı və dövlət vəzifəsi** | Dövlət orqanı anlayışı. Dövlət orqanlarının təsnifatı. Regional tabeçilik orqnları. Dövlət qulluğu vəzifəsinin anlayışı. Dövlət orqanlarında vəzifələrin təsnifatı və toplusu. İnzibati və yardımçı vəzifələrə aid ixtisas tələbləri. | **1** (fəsil 7);<br>**2** (fəsil 6.1);<br>**3** (fəsil 2.1; 2.2; 2.3) |
| 11 | **Dövlət qulluqçuları və məmurları** | Dövlət qulluqçusunun anlayışı. Dövlət qulluqçularının ixtisas dərəcələri Dövlət qulluqçusunun əsas vəzifələri və hüquqları. Dövlət qulluqçularının məhdudiyyətləri. | **1** (fəsil 8);<br>**2** (fəsil 6.3);<br>**3** (fəsil 2.4; 2.5; 2.6) |
| 12 | **Dövlət qulluqçularının sosial müdafiəsi və peşə hazırlığı** | Dövlət qulluqçulrının təminatları**.** Dövlət qulluqçularının dövlət məvacibi, vəzifə maaşlarına əlavə haqqın və yerli əmsalların müəyyən edilməsi. Dövlət qulluqçularının mükafatlandırılması və təltif olunması qaydaları Dövlət qulluqçulrının pensiya təminatı. Peşə hzırlığı və ixtisas dərəcəsinin verilməsi. Peşə hzırlığı və ixtisas dərəcəsinin verilməsi. | **1** (fəsil 9);<br>**2** (fəsil 7.2; 7.4);<br>**3** (fəsil 2.7) |
| 13 | **Dövlət qulluğuna daxil olma** | Dövlət qulluğuna daxil olma hüququ və bu sahədə qoyulan məhdudiyyətlər**.** Dövlət qulluğuna daxil olma qaydaları**.** İnzibati vəzifələrin tutulması mexanizmi. Dövlət qulluğunun şərtləri. | **1** (fəsil 10)<br>**2** (fəsil 5);<br>**3** (fəsil 3.6; 3.6.1; 3.6.2; 3.6.3; 3.6.6; 3.6.7) |
| 14 | **Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi və irəli çəkmək hüququ** | Dövlət qulluqçularının attestasiyasının keçirilməsinin başlıca şərtləri və təşkili. Attestasiyanın keçirilməsinin məqsədləri. Dövlət qulluğunda irəli çəkmək hüququ. Dövlət qulluğunda karyera modeli və ondan istifadə. Dövlət qulluğunda olmanın yaş həddi | **1** (fəsil 11);<br>**2** (fəsil 7.3);<br>**3** (fəsil 3.6.4; 3.6.5) |
| 15 | **Dövlət qullqçularının məsuliyyəti və dövlət qulluğuna xitam verilməsi** | Dövlət qulluğuna xitam verilməsinin əsasları. Əmək müqaviləsində müvafiq şərtlərin nəzərə alınması**.** Dövlət qulluqçularının məsuliyyəti. Dövlət qulluqçularının etdiyi hüquq pozuntularının xarakterinə görə onlara tətbiq edilən intizam, inzibati, maddi və cinayət məsuliyyətləri. | **1 (**fəsil 12);<br>**2** (fəsil 8.1; 8.3); |
| | **Yekun imtahan** | | |

## XIV. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tədris semestr əsaslı təşkil oluncaq və bakalavr səviyyəsi üzrə qiymətləndirmə hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal tələbələrin semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında formalaşır.

Hər semestrin əvvəlində bakalavrlara təqdim edilən sillabuslarda hər bir fənn üzrə aktivlik balının necə formalaşması qaydası göstərilir.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$

Burada,

B - yekun aktivlik balı;

b - seminar dərslərində alınan müxtəlif ballar;

s - semestr ərzində verilən cavabların sayı;

m - aktivlik balına ayrılan maksimal bal;

10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavr və magistrantlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə $(((10+10+10+10)/4)*20)/10 = 20$ olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə

4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavr və ya magistrantların cavab verməsi üçün imkan yaradır.

Tələbələr semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən "0" bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə "0" bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə*** - hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat səviyyəsi üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

***Aralıq qiymətləndirmə*** - test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata

keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

Tədris növlərinə müvafiq olaraq fənlər üzrə ***cari və aralıq qiymətləndirmə*** aşağıdakı qaydada və bal nisbətlərində həyata keçirilir:

Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır;

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir.

**XV. Sərbəst işlər (Qrup işi):** nəzərdə tutulmayıb.

**XVI. Fənn üzrə qiymətləndirmə**

**Biliyin qiymətləndirilməsi sistemi**

| | | |
|---|---|---|
| Tələbənin aktivliyi | 20 bal | 20% |
| Ara qiymətləndirmə | 30 bal | 30 % |
| Aralıq qiymətləndirmə | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

**Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana qədər toplanan ballar əsasında)**

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə baglı tələbənin hər-hansı şikayəti olarsa, o Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**Qeyd:** Imtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

**Tərtib etdi:**  **dos. Rəşad Səfərov**